Oxucuların təqdim olunan şeirləri Xalq şairi Nəriman Həsənzadə tərcümə etmişdir.

# "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyi



**Azərbaycan vətəndaşlarının elm, təhsil, mədəniyyət sahəsində fəal iştirakını təmin etmək, milli-mənəvi dəyərlərə əsaslanan müasir vətəndaş obrazını yaratmaq, qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək məqsədilə təsis edilən bir qurumdur. "Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri, sosial fəlsəfə üzrə fəlsəfə doktoru Xəyalə Akif qızı Məmmədova ilə söhbət.**

İctimai Birliyin nəzdində Beynəlxalq Multikultural Şəbəkə, Azərbaycan Dayanıqlı İnkişaf Akademiyası, Azərbaycan-Çin Elmi Araşdırmalar və Təhsil Mərkəzi və "Elm və İnnovativ Texnologiyalar" adlı elmi jurnal fəaliyyət göstərir.

"Elm və İnnovativ Texnologiyalar" beynəlxalq elmi araşdırmalar jurnalı ildə 5 dəfə dərc olunan, ictimaiyyət üçün açıq olan resenziyalı, elmin kompleks problemləri, humanitar və ictimai-siyasi, tətbiqi, təbiət sahələrini əhatə edən elmi-tədqiqat jurnalıdır. Jurnalda indiyədək dərc olunmayan, orijinallığı, yeniliyi və aktuallığı, ciddi elmi arqumentasiyası, qabaqcıl nəzəri və praktiki əhəmiyyəti ilə diqqəti cəlb edən elmi-texniki məqalələr dərc edilir. Jurnal Azərbaycan, rus, ingilis, Çin və türk dillərində elmi məqalələri dərc edir. Elmi jurnalın baş redaktoru filologiya elmləri doktoru, professor Teymur Əhmədovdur.

Azərbaycan-Çin Elmi Araşdırmalar və Təhsil Mərkəzi, Çin Xalq Respublikasının Jiangsu əyaləti Təhsil Departamentinin "Nanjing Hanjia Cultural Exchange" beynəlxalq təşkilatının rəhbərliyi ilə bağlanmış anlaşma memorandumu əsasında fəaliyyət göstərir. Mərkəzdə azərbaycanlı tələbələr üçün tanınmış Çin universitetlərində təqaüdlü təhsil, tələbə-müəllim mübadilə proqramları, azərbaycanlı mütəxəssislərə Çin universitetlərində dərs demək imkanları, Çin-Azərbaycan universitetləri arasında ikili diplom proqramları, iki ölkə arasında elmi tədbirlər, Çin dilinin öyrədilməsi ilə bağlı Çin müəllimləri və bütün dərs materialları ilə birbaşa təmin etmək əsasında fəaliyyət göstərir.

Azərbaycan Dayanıqlı İnkişaf Akademiyası, Dayanıqlı İnkişaf Məqsədlərinin elm və təhsildə inkişafına dəstək verən, maarifləndirməni gücləndirən, bu sahədə innovativ ideyaların reallaşmasına kömək edən tədris mərkəzidir. Eyni zamanda inkişaf istiqamətinin biri də BMT üçün qlobal təşəbbüs olan Dayanıqlı İnkişaf Məqsədlərinin onlayn tədris platforması kimi fəaliyyət göstərməkdir. Akademiya heyəti - Birləşmiş Millətlər Təşkilatı Universitetinin mütəxəssisləri, beynəlxalq ekspertlər, DİM üzrə dünyada fəaliyyət göstərən institutlarla yüksək səviyyədə əməkdaşlıq edir. Akademiyanın yaradılmasında əsas məqsədlər:

- *Yerli və Beynəlxalq səviyyədə Dayanıqlı İnkişaf Məqsədləri sahəsi ilə məşğul olan alimləri, vətəndaşları və qurumları bir araya gətirərək, platforma yaratmaq,*
- *Universitetləri bu istiqamətdə gücləndirmək üçün təhsil və potensialı artırmaq,*
- *Bu sahədə texnologiyanın, yeniliyin və təbliğatın güclənməsinə xidmət,*
- *Tərəfdaşlıqları genişləndirmək və Şəbəkələr qurmaq,*
- *Tədris proqramlarına Təhsil və potensialı artırmağa dəstək,*
- *Sosial idarəetməni gücləndirmək,*
- *Dayanıqlı İnkişaf məqsədlərinin inkişafı və maarifləndirilməsinə xidmət edən beynəlxalq proqramların Azərbaycanda tətbiqi,*
- *Yerli və beynəlxalq tədbirlərin mütəmadi təşkili,*
- *Bu istiqamətdə bizimlə çalışan beynəlxalq alimlərin dəstəyi ilə yayımları genişləndirmək.*
- *Təlim, Tədris və Təcrübə proqramlarının təşkili və s. kimi layihələri həyata keçirməkdir.*




Beynəlxalq multikultural şəbəkə - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi ilə əlaqədar olaraq, 4 mart 2016-cı il tarixində Beynəlxalq Multikultural Şəbəkə yaradıldı. Beynəlxalq Multikultural Şəbəkə, multikulturalizm sahəsi üzrə dünya səviyyəli elmi tədqiqatçıları bir araya gətirən virtual məkandır. Təsisçisi və rəhbəri Xəyalə Akif qızı Məmmədovadır.

Müxtəlif ölkələrdə mədəniyyətlərarası və dinlərarası münasibətlərin inkişafında ixtisaslaşmış alimlərin elmi araşdırmalarını beynəlxalq ictimaiyyətə təqdim etmək şəbəkənin əsas prioritetidir. Beynəlxalq Multikultural Şəbəkə multikulturalizm sahəsində həyata keçirilən beynəlxalq tədbirlərdə iştirak edir, dünyada milli və dini tolerantlığın gücləndirilməsi, multikulturalist dəyərlərin təbliği, ayrı-seçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması işinə vətəndaş cəmiyyətinin dəstəyini həyata keçirir, multikulturalizm siyasətinə yardım edən proqram və layihələri hazırlayır, bu kimi aktual məsələlərin yerli və beynəlxalq səviyyədə kütləvi informasiya vasitələrində yayımlanmasını yüksək səviyyədə təmin edir. Şəbəkənin işçi heyəti multikulturalizm üzrə ixtisaslaşmış yerli və xarici elmi-tədqiqatçılardan ibarətdir.

Beynəlxalq Multikultural Şəbəkəni yaratmaqda əsas məqsədimiz:

- Azərbaycanın multikulturalizm modelinin və mövcud multikultural modelləri tədqiq etmək;
- Multikultural dəyərlərin inkişafına və multikultural məqsədlərin əldə edilməsinə nail olmaq;
- Tərəfdaşlarımız və üzvlərimizlə beynəlxalq səviyyədə iş birliyini gücləndirmək;
- Şəbəkə üzvlərinin beynəlxalq səviyyədə multikultural təhsil almaları üçün "körpü" rolunu oynamaq;
- Mədəniyyət fərqlilikləri ilə bağlı yaranan problemləri üzə çıxarmaq, problemin aradan qaldırılmasına çalışmaq;
- Fəaliyyət istiqamətimizə uyğun yerli və beynəlxalq təşkilatlarla münasibətləri inkişaf etdirərək, əməkdaşlıq etmək;
- Qeyri-tolerantlığa qarşı çıxmaq.

Beynəlxalq Multikultural Şəbəkənin "Ölkə Təmsilçiləri qrupu"nu təşkil etməkdə əsas məqsədimiz Azərbaycanın bu sahədə gerçəkliyini beynəlxalq səviyyədə təbliğatını aparmaq, etnik-mədəni, dini müxtəlifliyin tolerant əsaslarının qarşılıqlı elmi təhlilini aparmaqla, qorunub saxlanılma yollarını müəyyənləşdirməkdir. Hazırda 60-a yaxın ölkədə elmi tədqiqatçılar və alimlərdən ibarət xarici ölkə təmsilçilərimiz fəaliyyət göstərir. Məqsədimiz bundan sonra da Azərbaycanda multikulturalizm sahəsində dövlət siyasətinə dəstək verməkdən başqa, ölkəmizdə bu istiqamətdəki uğurların beynəlxalq səviyyədə təbliğatını ölkə təmsilçilərimiz vasitəsilə aparmaqdır.

Bu təşkilat yaradılan gündən bu günə qədər mütəmadi olaraq, Azərbaycan və digər ölkələrdə multikultural təlim, seminar və vebinarlar təklif edir; multikulturalizm və dini tolerantlıq anlayışını təbliğ edən konfranslar həyata keçirir, film ekranlaşdırılması, sərgilər və bu kimi başqa tədbirlər təşkil etməkdən başqa, eyni zamanda fəaliyyət istiqamətlərimiz üzrə müxtəlif sosial tədbirlərin həyata keçirilməsini də təmin edir. 24 dekabr 2019-cu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günü münasibətilə Böyük Britaniyanın tanınmış "PRİSMA" adlı multikultural qəzeti ilə birgə "Poems from around the World: Multicultural Understanding through Poetry" (Dünyanın hər tərəfindən şeirlər: Poeziya vasitəsilə Multikulturalizmin anlaşılması) adı altında yeni bir beynəlxalq şeir müsabiqəsi həyata keçirdik. Beynəlxalq Multikultural Şəbəkə məqsədinin həyata keçirilməsində İngiltərənin "THE PRİSMA" multikultural qəzeti, Avstraliyada Mədəni İnfuziya, Çində "The Caspian Times" xəbərlər portalı, Avstraliyada Cultural Infusion təşkilatı, Korea Multikultural Təhsil Assosiasiyası, "Edvic" multikultural jurnalı, "Nuestro" mədəniyyət jurnalı, Edgy Tv və s. bu kimi qurumlarla sıx əməkdaşlıq edir. Ölkəmizdə mədəni müxtəlifliyin qorunub daha da inkişafına yönəlmiş multikulturalizm ideologiyasına, ən yüksək səviyyədə önəm verilməsi və multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması ilə bağlı mütəmadi olaraq Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti ilə bağlı məqalələr hazırlanıb beynəlxalq mətbuatda dərc etmək Beynəlxalq Multikultural Şəbəkənin əsas vəzifələrindən biridir.

Qurumun həyata keçirdiyi əsas layihələrdən biri də dünyada multikulturalizm sahəsində ixtisaslaşan dünya səviyyəsində tanınmış alim və elmi-tədqiqatçılarla elmi müsahibələr aparmaqdır. Hazırlanan müsahibələr beynəlxalq qəzet və jurnallarda dərc olunur. Müsahibələrin aparılmasının əsas məqsədlərindən biri də verilən suallardan birinin Azərbaycanda yüksək səviyyədə aparılan multikulturalizm siyasəti ilə bağlı verilən məlumat xarakterli sualın olmasıdır.

Beynəlxalq Multikultural Şəbəkənin əsas hədəfləri: Beynəlxalq Multikultural Şəbəkənin fəaliyyətinə əsasən uğurlu və işgüzar reputasiyaya sahib olmaq, Azərbaycan Respublikasının multikulturalizm sahəsindəki mühüm uğurlarının beynəlxalq mütəxəssislər tərəfindən xarici ölkələrdə təbliğatını həyata keçirmək; Fəaliyyət istiqamətləri üzrə elmi təhlilləri aparmaq və qorunub saxlanması yollarını müəyyənləşdirmək, Multikulturalizm üzrə dünya mütəxəssislərinin şəxsi təcrübələrini təhlil edərək, təbliğatını aparmaq; Müxtəlif ölkələrə aid mədəniyyətləri araşdırmaq və təşviq etmək; Beynəlxalq Multikultural Şəbəkənin ölkə təmsilçilərinin sayının artırılmasını təmin etməkdir.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**